AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ
TARİX FAKÜLTƏSİ

# Türk dünyası: Ortaq tarixi-mədəni dəyərlər, müasir reallıqlar və gələcəyə baxış

II Beynəlxalq elmi konfransın
MATERİALLARI

# The Turkic World: Shared historical and cultural values, contemporary realities, and a virion for the future

II International Scientific Conference
MATERIALS




25-26 dekabr 2025 / 25-26 december 2025

**AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**TARİX FAKÜLTƏSİ**

# TÜRK DÜNYASI: ORTAQ TARİXİ – MƏDƏNİ DƏYƏRLƏR, MÜASİR REALLIQLAR VƏ GƏLƏCƏYƏ BAXIŞ MÖVZUSUNDA

## II BEYNƏLXALQ ELMİ KONFRANSIN MATERİALLARI

**25-26 dekabr 2025-ci il**

# THE TURKIC WORLD: SHARED HISTORICAL AND CULTURAL VALUES, CONTEMPORARY REALITIES, AND A VISION FOR THE FUTURE

## II INTERNATIONAL SCIENTIFIC CONFERENCE

## MATERIALS

**25-26 december 2025**

*Konfransın materialları BDU-nun Tarix fakültəsi Elmi Şurasının 17 mart 2026-cı il tarixli (3 saylı protokol) iclasının qərarı ilə çap edilir.*

**BAKI - 2026**

## TƏŞKİLAT KOMİTƏSİ

**Sədr:**
İbrahim Zeynalov

**Üzvlər:**
Kəmalə Nəcəfova
Elnur Əbilov
Nigar İsmayılzadə
Sevinc Əliyeva
Hüseyn Hüseynli
Qənirə Pirquliyeva
Səidə Quliyeva
Ulduz Paşayeva

## ELMİ KOMİTƏ

**Sədr:**
Yaqub Mahmudov

**Üzvlər:**
Mavlyuda Abbasova-Yusupova
Yulduz Erqaşeva
Əsməd Muxtarova
İradə Hüseynova
Vəkil Həsənov
Tarix Dostiyev
Azad Rzayev
Mehman Abdullayev
İqbal Ağayev
Baybolot Abıtov
Meltem Tekerek
Elmira Zulpıkharova

**Türk dünyası: ortaq tarixi – mədəni dəyərlər, müasir reallıqlar və gələcəyə baxış.** II Beynəlxalq elmi konfransın materialları. Bakı, “Füyuzat” nəşriyyatı, 2026, 848 səh.

© “Füyuzat”, 2026

## MÜNDƏRİCAT

**İbrahim Zeynalov**
Ümummilli Lider Heydər Əliyev: türk dilli xalqları birləşdirən ortaq tarixi-mədəni irs, ortaq dil ........ 17
**Kəmalə Nəcəfova**
Cənubi Qafqazda sülh və təhlükəsizliyin qorunmasında "Şuşa Bəyannaməsi" nin rolu ........ 19
**İqbal Ağayev**
Türk dövlətləri təşkilatı çərçivəsində Azərbaycanın orta dəhlizin genişləndirilməsi istiqamətində fəaliyyəti ........ 22
**Sani Hacıyev**
XVII-XVIII əsrlərdə Osmanlı dövlətində demoqrafik proseslərin sosial nəticələrinə dair ........ 28
**Rəşad Cabarov**
Göytürk imperiyasının nümunəsində klassik Türk dövlət quruculuğu ........ 32
**Hüseyn Hüseynli**
Türkiyənin müdafiə-təhlükəsizlik siyasətində Azərbaycan və Gürcüstan ........ 34
**Samudə İskəndərova**
Türk dövlətləri təşkilatının yaradılması və fəaliyyəti ........ 37
**Tariel Abbasov**
XX əsrin sonu – XXI əsrin əvvəllərində Yaxın və Orta Şərq regionunda ABŞ-ın xarici siyasət strategiyasının təhlili ........ 42
**Əsməd Muxtarova**
Erkən orta əsrlərdə Türk dövlətlərində hərbi demokratiyanın mövcudluğunu göstərən elementlər ........ 46
**Sevinc Ruintən**
Şimali Kipr Türk Cümhuriyyəti müasir beynəlxalq münasibətlər sistemində ........ 50
**Şəbnəm Cəfərova**
Misir və Yaxın Şərqin tarixində ilk müsəlman türklər: Zəngilər (XI-XIII əsrlər) ........ 60
**Taleh Cəfərov**
Azərbaycan-Türkiyə diasporunun təşkilatlanması və erməni lobbisinə qarşı birgə fəaliyyəti ........ 63
**Mehman Abdullayev**
Xanlıqlar dövründə Azərbaycanda zadəgan cəmiyyətinin özünəməxsus xüsusiyyətləri ........ 69

**Zəhra İslamova**
Şuşa məscidlərinin Vəqfnamələri ........................................................ 73
**Səidə Quliyeva**
Türk dünyasında miqrasiya və etno-siyasi proseslər barədə (ən qədim zamanlardan 1991-ci ilə qədər) ........................................................ 76
**Asəf Hacıyev**
Azərbaycan Xalq Cümhuriyyətinin sərhəd və ərazi məsələlərinə dair ................ 79
**Ulduz Paşayeva**
XIX– XX əsrdə Bakı şəhərinə və əhalisinə dair məlumatlar tarixi əsərlərdə və mənbələrdə ........................................................ 84
**Günay Aşurova**
Türk şəhəri İrəvanda demoqrafik strukturun ermənilərin lehinə dəyişdirmə fəaliyyətləri ........................................................ 88
**Elgün Qəhrəmanov**
Keçilmiş yoldan asılılıq kontekstində Türkiyə avrasiyaçılığına baxış ................ 92
**Sevinc Məlikzadə**
Xəzərlərin azərbaycan xalqının etnogenezinə təsiri ........................................ 97
**Arzu Abbasova**
Müasir dövrdə Türk dövlətləri arasında inteqrasiya prosesləri........................... 101
**Elşən Aslanov**
XIX əsrdə Qarabağın tarixi coğrafiyası: siyasi və demoqrafik dəyişikliklər....... 105
**Sevinc Qasımova**
XIX əsr Azərbaycan maarifçilərinin ortaq türk tarixinə yanaşmaları: müqayisəli təhlil........................................................ 109
**Kəmalə Məmmədova**
Türk xalqlarının ortaq taleyində Azərbaycan legionu: siyasi varislik və gesiyasi gözləntilər ........................................................ 113
**Səbinə Alıyeva**
Türk dünyası: Nadir şahın Azərbaycan - Türkiyə tarixşünaslığında müqayisəli təhlil ........................................................ 117
**Gülnarə Sədrəddinova**
Laybax konqresi və Osmanlı: "Şərq məsələsi"ndə güc balansı.......................... 120
**Nərminə Hüseynova**
Müstəqillik dövründə türk xalqlarının ortaq qeyri – maddi mədəni irsinin UNESCO-da mühafizəsi........................................................ 123
**Sevinc Məmmədova**
Azərbaycanın mədəni diplomatiyasında İCESCO-nun rolu ............................... 127

**Rauf Qurbanov**
Türk dövlətləri təşkilatının Azərbaycan-Rusiya münasibətlərinə təsiri (2009-2023-cü illər)........................................................................................ 129
**Nərminə Məmmədova**
Müasir Türk dünyasında dil, gender və mədəni inteqrasiya: Azərbaycan və Türkiyə nümunəsində tarixi-mədəni davamlılıq və qərb dilləri ilə müqayisəli nəzəri yanaşmalar ................................................................................. 134
**Əfsanə Quliyeva**
Vətən müharibəsi qələbəsinin Ümumtürk kimliyinin qrammatik- semantik ifadəsinə təsiri ........................................................................................ 138
**Əsmər Şükürlü**
Müstəqillik illərində Qazaxıstan – Azərbaycan strateji tərəfdaşlığı: siyasi, iqtisadi və mədəni aspektlər........................................................................ 143
**Zəhra Cəfərli**
XXI əsrin ilk rübündə Azərbaycan və Özbəkistan arasında ikitərəfli münasibətlər........................................................................................ 148
**Fərhad Rüstəmzadə**
Şah I Təhmasibin hakimiyyəti illərində Səfəvi-Böyük Moğol əlaqələri ............ 152
**Samirə Hadıyeva**
Moisey Kalankatuklunun kimliyi və erməni tarixşünaslığında təhrifi problemi. 154
**Xəyalə Ağayeva**
Ermənilərin Versal (Paris) Sülh konfransında tələbləri ...................................... 158
**Oruc Quliyev**
"Əkinçi" qəzetinin nümayəndələrinin şəxsi arxivində Azərbaycan tarixi məsələləri ........................................................................................ 162
**Xuraman Hümmətova**
Detektiv janrı və Kemel Tokayevin "Sirli iz" povestində tarixi gerçəkliklər..... 167
**Seyidnisə Lətifli**
Kemel Tokayevin "Damğalı qızıl" povestinin polis detektivi kontekstində bədii təhlili ........................................................................................ 174
**Jalə İsmayılova**
Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad olunmasının Ümumtürk tarixi kontekstdə əhəmiyyəti ........................................................................................ 179
**Gültəkin Knyazova**
Mədəni yaddaş və sosial psixologiya: Türk dünyasında kollektiv kimliyin inkişafı ........................................................................................ 183
**Lamiyə Orucova**
Dördüncü sənaye inqilabı dövründə Türk dövlətləri: süni intellekt əsasında əməkdaşlıq və inkişaf........................................................................................ 188

**Nurlan Nəsirov**
Ortaçağ narrativ qaynaqlarında Moğol hakimiyyəti dövründə Azərbaycanda məskunlaşan türk tayfalarına aid məlumatlara dair ............ 193
**Söhrab Mustafayev**
8 noyabr zəfərinin Türkiyə qəzetlərində əks olunması ............ 198
**Odər Əlizadə**
"Azərbaycan" qəzetində (1918-1920-ci illər) Turan ideyasının poetik və siyasi ifadəsi ............ 202
**Ülvü Rəhimli**
Türk dövlətləri birliyinin potensialı: geosiyasi reallıqlar və inteqrasiya ............ 208
**Günel Rəhimli**
Səfəvilərin etnik kökü məsələsi: Şeyx Səfiəddin Ərdəbilinin "Türk piri" kimi təsnifi ............ 212
**Salman İbişov**
Azərbaycan tarixinin Ümumtürk tarixi kontekstində öyrənilməsi məsələləri (Cümhuriyyət qurucularının əsərləri əsasında) ............ 215
**Rəvan Məmmədov**
Azərbaycan-Türkiyə humanitar əlaqələrinin institusional mexanizmləri ............ 219
**Həmid Əhmədli**
Qarabağ zəfərinin Türk dövlətləri arasında inteqrasiya proseslərində əhəmiyyəti: nəticələr və perspektivlər ............ 222
**Şəfa Əbdürrəhimova**
Fransa-Türkiyə münasibətlərində Osmanlı borcları məsələsi ............ 227
**Səbinə Muradova**
XX–XXI əsrlərdə Türk dünyasında etnik və mədəni kimlik problemləri ............ 230
**Ülviyyə Poladxanlı-Yaşarlı**
İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzura qayıdış və bərpa-quruculuq işləri ............ 234
**Sevinc Qurbanova**
Səfəvi səfirləri İspaniya sarayında ............ 237
**Şəfəq Mustafayeva**
Türk dünyası XXI əsrdə: müasir reallıqlar və gələcəyə baxış ............ 240
**Aygün Soltanzadə**
Türkiyəyə təhsil və iş üçün gələn qazaxların ikitərəfli münasibətlərdə rolu ............ 243
**Kəmalə Qurbanlı**
Osmanlı imperiyası dövründə ərəb millətçiliyi ............ 246
**Ramil Niftalıyev**
Türk dövlətləri arasında müasir inteqrasiya mexanizmləri və regional əməkdaşlıq platformaları ............ 248

**Dilqəm Əhmədov**
Türkiyə Böyük Millət Məclisində fəaliyyət göstərmiş azərbaycanlılar............... 253
**Vüsalə Bəbirova**
Vətən müharibəsində qazanılan qələbənin Ümumtürk tarixi üçün əhəmiyyəti və nəticəsi ........................................................................................................ 256
**Səmra Hacıyeva**
Orta əsrlərdə türk xalqları mədəniyyətinin əsas qayəsi ....................................... 261
**Əli Fərhadov**
Qacarlar dövründə demokratik haqlar uğrunda mübarizə: Mirzə Yusif xan Təbrizi nümunəsi ................................................................................................ 266
**Türkan Qurbanova**
44 günlük Vətən müharibəsinin Ümumtürk tarixi və regional əhəmiyyəti ......... 269
**Saida İsmayılzadə**
Hun imperiyasının Cənub-Şərqi Avropada etno-siyasi təsiri: Roma–Hun qarşıdurması və Avropanın yeni etnik xəritəsinin formalaşması ......................... 272
**Nazim Məmmədov**
Türk dünyası və Heydər Əliyev fenomeni ......................................................... 276
**Nigar Camalova**
Türk dünyasının şəxsiyyətləri: T. Makinskinin rəsmi fəaliyyəti......................... 282
**Xuraman Vəliyeva, Vəfa Əliyeva**
Ağabala Quliyevin şəhər özünüidarəsində iştirakı və siyasi fəaliyyətinə dair (1904-1917-ci illər)............................................................................................. 288
**Bəxtiyar Tuncay**
İslamdan öncəki türk poeziyası və ilk türk şairləri ............................................. 295
**Fidan Şahmalıyeva**
Türk dövlətlərinin zəfərdən sonra Qarabağda quruculuq dəstəyi: tarix, həmrəylik və gələcək ......................................................................................... 299
**Nərmin Əhmədli**
Beynəlxalq Türk mədəniyyət təşkilatının (Türksoy) Türk dünyası üçün əhəmiyyəti və onun fəaliyyət istiqamətləri......................................................... 302
**Aytac Nəcəfli**
Tarixi dünyagörüşün fəlsəfi əsaslarına dair ...................................................... 306
**Tarix Dostiyev**
Qarabağın daş bütlərinin etnik- mədəni mənsubiyyətinə dair ............................. 311
**Qənirə Pirquliyeva**
Türk dövlətlərinin sikkə zərbinin özəllikləri və Azərbaycan............................... 316
**Hicran Mahmudova**
Skif hərb sənətinin Ümumtürk xüsusiyyətləri ..................................................... 322

5. *Dostiyev, T. Orta əsr Şəmkir şəhərində fayans qablar istehsalına dair // Bakı Universitetinin Xəbərləri, İctimai elmlər seriyası. – 2017. – №1. – s. 105–113.*
6. *Dostiyev, T.M. Şəmkir şəhər yerindən tapılmış "minai" tipli fayans qablar // Azərbaycan Arxeologiyası. – 2015. – №1. – s. 82–92.*
7. *Гаджиев, М.С. Дербент – памятник мировой истории и культуры // Вестник Института ИАЭ. – 2015. – №1. – s. 5–20*
8. *Двин IV. Город Двин и его раскопки (1981–1985) / Под ред. А.А. Калантарян. – Ереван: Изд. Гитутюн, 1981. – 294 с.*
9. *Ибрагимов, Б.И. Средневековый город Киран. – Баку–Москва: Московская типография, – 2000. – 176 с.*
10. *Кверфельдт, Э.К. Керамика Ближнего Востока: Ру-ководство к распознанию и определению керамических изделий. – Ленинград: Гос.Ермитаж, – 1947. – 146 с.*
11. *Matin, M., Ownby, M. Early stonepaste ceramic technology in Fustat, Egypt // Journal of Archaeological Science: Reports, – 2023, 50, – p. 1–9.*
12. *Mc.Clary R. P. Mina'i Ware: A Reassessment and Comprehensive Study of Iranian Polychrome Overglaze Wares through Sherds. Edinburgh: Edinburgh University Press, 2024. — 360 s.*
13. *Tite, M.S. The technological development of stonepaste ceramics from the Islamic Middle East / M.S. Tite, S. Wolf, R.B. Mason // Journal of Archaeological Science. – 2011. – 38. – p. 570–580.*

# TAĞLAR MAĞARASINDA ARXEOLOJİ TƏDQİQATLARIN BƏRPASI: QARŞIDA DURAN VƏZIFƏLƏR VƏ İLKİN NƏTİCƏLƏR

**Azad Zeynalov**
AMEA Arxeologiya və Antropologiya İnstitutu AR ETN Təbiət Tarixi Muzeyi
aparıcı elmi işçi, t.ü.f.d., dosent
azykh1960@gmail.com

**Yoshihiro Nishiaki**
Tokio Universiteti Muzeyi, Tokio, Yaponiya. Direktor, professor
nishiaki@um.u-tokyo.ac.jp

**Yaqub Məmmədov**
AMEA Arxeologiya və Antropologiya İnstitutu, Xəzər Universiteti,
Tarix və arxeologiya departamenti, aparıcı elmi işçi, t.ü.f.d.
yaqubamea@gmail.com

**Ülviyyə Səfərova**
AMEA Arxeologiya və Antropologiya İnstitutu, Xəzər Universiteti,
Tarix və arxeologiya departamenti, elmi işçi
samkhet@mail.ru

**Pərivəs Babai**
AMEA Arxeologiya və Antropologiya İnstitutu, elmi işçi
peri.babai2020@gmail.com

***Açar sözlər:*** *Orta paleolit, neandertal, Tağlar mağarası, Cənubi Qafqaz*
***Keywords:*** *Middle Paleolithic, Neanderthal, Taghlar cave, The South Caucasus*

Cənub-Qərbi Asiya regionu Afrika, Asiya və Avropanın kəsişməsində yerləşən özünəməxsus coğrafi mövqeyinə görə orta paleolit dövrünün mədəni və antropoloji dinamikasını öyrənmək üçün əsas bölgə kimi seçilir. Çox güman ki, tarixdən əv-

vəlki insan qrupları bu bölgədə təmasda olmuş, birləşmiş və bir-birlərini əvəzləmişdilər. Cənub-Qərbi Asiyanın şimal kənarında yerləşən Cənubi Qafqaz da bu bölgənin bir hissəsini təşkil edir. Bununla belə, bu kontekstdə əvvəlki paleolit tədqiqatları əsasən Levant bölgəsinə yönəlmişdir. Çünki Aralıq dənizi ilə daxili səhra arasında sıxışdırılmış bu dar şimal-cənub zolağı orta və üst paleolit dövrünə aid çoxsaylı insan məskənlərini özündə cəmləşdirmişdir. Buna görə də Avrasiyada müasir insanın yayılması ilə bağlı tədqiqatlarda Cənubi Qafqaz bölgəsinin əhəmiyyəti böyükdür. Bu region, Cənub-Qərbi Asiyanın orta və üst paleolit dövrünə dair bəşər tarixinin mürəkkəb inkişaf trayektoriyasını tərtib etməkdə mövcud boşluğu doldura biləcək əhəmiyyətli məlumatlar təqdim edə bilər.

Azərbaycanda bu problemi həll etmək üçün Azərbaycan–Yaponiya birgə arxeoloji ekspedisiyası 2016–2023-cü illərdə Damcılı mağarasında, 2023-cü ildə isə Daşsalahlı və Tağlar mağaralarında tədqiqatlar aparmışdır [5]. 2024-cü ildən etibarən tam miqyaslı tədqiqat üçün Tağlar mağarası seçilmişdir.

Tağlar mağarası Azərbaycanın cənub-qərbində, Füzuli şəhərindən təxminən 20 km qərbdə, Xocavənd rayonu ərazisində yerləşir. Tağlar mağarasından təqribən 3 km şərqdə isə unikal Azıx mağarası yerləşir.

Bu mağara 1960-cı ildə M. Hüseynov tərəfindən aşkar edilmiş və 1964-cü ildən 1986-cı ilə qədər fasilələrlə ümumilikdə 12 il ərzində qazıntılar aparılmışdır. 1980-ci ildə qazıntılara Ə. Cəfərov rəhbərlik etmişdir. Bu qazıntılar nəticəsində 6 metrdən çox qalınlığa malik orta paleolit dövrünə aid 6 mədəni təbəqə aşkar olunmuşdur**.** İşğal dövründə kiçik miqyaslı, qeyri-qanuni qazıntılar aparılsa da, nəticələr dərc edilməmişdir. 2020-ci ildən sonra Qarabağda arxeoloji tədqiqatlar yeni bir mərhələyə qədəm qoydu. Bu kontekstdə biz Tağlar mağarasında 2023-cü ildə ilkin, 2024–2025-ci illərdə isə daha əsaslı tədqiqatlar apara bildik.

Tağlar mağarasına marağımız ikiqat idi:

Birincisi, Tağlar mağarasının orta paleolit çöküntüləri Cənubi Qafqazda paleolit dövrünə aid yerlər üçün olduqca sıxdır. Holosenə aid olan və qalınlığı 20 sm-dən az olan I təbəqədən başqa, əsas süxurda orta paleolitin əsas litoloji təbəqələri (II–VI təbəqələr) 5 metrdən çox qalınlıqda toplanmışdır [7]. Buna görə də Tağlar mağarası Cənubi Qafqazda Neandertal mədəniyyətinin uzunmüddətli inkişafını araşdırmaq üçün nadir bir fürsət yaradır.

İkincisi, orta paleolitin son mərhələsinə aid olan II təbəqə ilkin nəşrlərdə (Джафаров, 1983) orta paleolit dövrünə aid hesab olunurdu; lakin sonrakı yazılarda, mustye sənayesi üstünlük təşkil etsə də [8, c.179], bu təbəqə üst paleolit dövrünə aid edilmişdir [9]. Ehtimal ki, bu təbəqəyə III təbəqənin materialları qatılmışdır. 2025-ci ilin qazıntıları bu iki təbəqəni ayıran sərhədi dəqiqliklə aşkarlanmışdır və mağaranın II təbəqəsindən (hələlik çox kiçik sahədə) yalnız üst paleolitə aid artefaktlar aşkarlanmışdır. Əgər bu təsdiqlənsə, Tağlar mağarasındakı tədqiqatlar Cənubi Qafqazda orta paleolitdən üst paleolitə keçidin dərk edilməsinə mühüm töhfə verəcəkdir.

Geocoğrafi təhlil. Rəqəmsal yüksəklik modelini yaratmaq məqsədilə dron vasitəsilə mağaranın geomorfoloji tədqiqatı həyata keçirilmişdir. Mağaranın müasir geomorfoloji quruluşu, qarşısından keçən üç magistral yolun təsiri nəticəsində ciddi şəkildə dəyişmişdir. Buna baxmayaraq, əldə etdiyimiz məlumatlar göstərir ki,

mağara Quruçay çayının müasir yatağından təxminən 30 metr yuxarıda, dəniz səviyyəsindən isə 712 metr yüksəklikdə yerləşir. Tağlar 50 m eninə uzanan və 6 karst boşluqlarından ibarət mağaradır. Tədqiqatlar mağaranın şərqində yerləşən zalda aparılırdı. Maksimum hündürlüyü 6 metrdir. Əsas zal təqribən 8 m enində və 10 m dərinliyində olub. Döşəmədən hündürlüyü 5,5 metrə qədərdir. 1964-cü ildə qazıntılara başlanarkən çöküntülərin səthdən təxminən 1 metr qalınlıqda olduğu düşünülürdü. M. Hüseynov tərəfindən digər zalda aparılan ilkin araşdırmalar nəticəsində az sayda orta paleolit artefaktları aşkar olunmuşdur. Buna görə də bu mağaranın demək olar ki, bütün ərazisi orta paleolit homininləri tərəfindən istifadə edilmişdir.

Bununla belə, 2024–2025-ci illərdə araşdırmamız, orta paleolit dövrünün ən intensiv insan məskunlaşmasını əks etdirən bu sistemin şərq ucunda yerləşən ən böyük zala fokuslanmışdır.

Əvvəlki tədqiqatlar çərçivəsində mağara yataqlarının təxminən üçdə ikisi artıq qazılmışdır. Hazırda mağaranın mərkəzi hissəsindəki dərin boşluq, 1960–1986-cı illərdə aparılan genişmiqyaslı qazıntıları əks etdirir. Bununla belə, 2023-cü ildə aparılan ilkin araşdırmalar göstərdi ki, şərq mağara divarı boyunca ilkin yataqlar hələ də qalır. Lakin ərazi 1980-ci illərin ortalarından bəri qorunmadığı üçün bu divarın yuxarı hissəsinin böyük bir qismi çökərək mağaranın daxili hissəsini çöküntülərlə doldurmuşdur. Qazılmış və qazılmamış ərazilər arasındakı sərhədi müəyyənləşdirmək üçün divar boyu dağılmış və ya pozulmuş çöküntülər təmizlənmişdir.

Stratiqafik qruluş. Qazıntı və kvadratların təmizlənməsi əvvəlki stratiqrafik bölmələrin etibarlılığını təsdiqlədi.

I təbəqə. Holosen təbəqəsi bizim qazıntılar zamanı nadir hallarda müəyyən edilmişdir. Lakin şərq divarındakı boşluqlarda, əsasən heyvan peyinləri ilə təmsil olunan qalıqlar müşahidə edilmişdir.

II təbəqə. İkinci təbəqə açıq qəhvəyi-boz çöküntülərlə fərqlənir. Mağara ağzına daha yaxın olan çöküntülər isə çox güman ki, su fəaliyyəti nəticəsində güclü şəkildə daşlaşmaya məruz qalmışdır. Bununla belə, arxeoloji tapıntılar mağaranın daxili divarına daha yaxın hissədən toplanmışdır.

III təbəqə. Bu təbəqə 30–80 sm qalınlığında solğun yaşılımtıl-boz gil torpaqdan ibarətdir. Çöküntülər homogen və yığcamdır. Mağaranın ortasında bir neçə ocaq yeri müəyyən edilsə də, mağaranın ağzı və arxa hissələrində insan fəaliyyəti ilə bağlı çox az dəlil müşahidə olunmuşdur. Bu ərazilərdə daşdan hazırlanmış əşyalar və heyvan qalıqları nadir hallarda rast gəlinir.

IV təbəqə. Sarımtıl-solğun və az əhəngli gilli torpaqdır. Bu təbəqə Tağlar mağarasında orta Paleolit çöküntülərinin əsas hissəsini təşkil edir və qalınlığı təxminən 2 metrdir. O, IVa və IVb alt təbəqələrinə bölünür; sonuncusu orqanik qalıqlarla əhəmiyyətli dərəcədə zəngindir və materialında daha az karbonat tərkibi müşahidə olunur. Üst-üstə yerləşmiş çoxsaylı ocaq laylari aşkar edilmişdir. IVa təbəqəsinin çöküntüləri bilavasitə mağaranın daxili hissələrinin döşəməsi üzərində müəyyən edilmişdir. Buna görə də alt təbəqələr yalnız mağara ağzına yaxın ərazilərdə aşkar edilmişdir. IVb təbəqəsinin dibində, mağara ağzının yaxınlığında qaya çökməsinin izləri müəyyən edilmişdir. Görünür, bu, mağaranın ağzında yerləşən nəhəng qayanın damdan düşdüyü dövrə aiddir.

V təbəqə. Bu təbəqə yaşılımtıl-palçıqlı, qalınlığı təxminən 1 metr olan gillicə torpaq təbəqəsindən ibarətdir. IV təbəqə ilə müqayisədə burada ocaq yerləri və orqanik qalıqlar çox az müəyyən edilmişdir. Bunun əksinə olaraq, qaya qırıqları geniş yayılmışdır.

VI təbəqə. VI təbəqə mağaranın girişində yüksək dərəcədə bərkimiş brekçiya ilə dolu gilli torpaq ilə xarakterizə olunur. O, qazıntı sahəsindəki daş qaya üzərində yerləşirdi. V təbəqəyə bənzər olaraq, burada ocaqlar və orqanik qalıqlar çox az müəyyən edilmişdir. Əsas qaya yatağı giriş hissəsində aşağıya doğru kəskin şəkildə azalırdı. Bu isə qazıntı xəndəyi mağara terrasına qədər genişləndirildikdə, daha qədim çöküntülərin də bərpa oluna biləcəyi ehtimalını göstərir.

Əldə edilmiş materiallar. Aparılan qazıntılar nəticəsində təxminən iki mindən artıq daş artefakt aşkar edilmişdir. Bunların üçdə biri II–V təbəqələrin əsas kontekstlərindən əldə olunmuşdur. Əvvəlki tədqiqatlar daş sənayesində xronoloji dəyişikliklərin ola biləcəyini göstərmişdir. Tədqiqatımızın əsas məqsədi belə dəyişiklikləri müəyyən etmək olmuşdur. Bu günə qədər daş sənayesi ilə bağlı ən azı üç ilkin müşahidəni qeyd etmək mümkündür.

Birincisi, daş kolleksiyası Levallua texnikasına əsaslanan mustye tipli sənayeni təmsil edir və yan qaşovlar ilə fasetlə kəsilmiş artefaktlarla xarakterizə olunur. Ümumilikdə, daha əvvəl qeyd edildiyi kimi, bu materiallar Zagros mustye mədəniyyəti adlandırılan sənayeyə bənzəyir.

İkincisi, 2024 və 2025-ci illərdə aparılan qazıntılar nəticəsində əldə olunan materiallarda nüvələrin və kiçik qırıntıların nadirliyi diqqət çəkir. Bu müşahidə mağarada insan məskənlərinin müvəqqəti xarakter daşıdığı təəssüratını yaradır.

II–VI təbəqələr üzrə çöküntülərin mütləq yaşını təyin etmək məqsədilə sistematik nümunələr götürülmüşdür. III–VI təbəqələrin üst qatlarından optik stimullaşdırılmış lüminesans (OSL) analizi üçün 20 dən artıq nümunə götürülmüşdür. Eyni zamanda, II təbəqədən radiokarbon təyini məqsədilə heyvan sümükləri götürülmüşdür.

Beləliklə, Tağlar mağarasında aparılan qazıntılar aşağıdakı nəticələri ortaya çıxardı: 1964–1986-cı illərdə mərkəzi ərazidə aparılan qazıntıların əsas qayaya qədər çatdığı təsdiqlənmişdir. Stratiqrafik eninə kəsiyin yalnız kiçik bir hissəsi müəyyən edilsə də, 2024-cü il mövsümündə aparılan tədqiqatlar mağaranın şərq divarı boyunca 8 metr uzunluğunda şimal-cənub istiqamətli stratiqrafiyanı aşkar etmişdir ki, bu da onun əsas mədəni ardıcıllığının müəyyənləşdirilməsinə kömək etmişdir.

Qazıntımız göstərdi ki, mağaranın şərq divarı boyunca hələ də çoxlu miqdarda qazılmamış çöküntü mövcuddur. Qazıntılar zamanı bir sıra ocaq yeri, çoxlu daş artefakt və heyvan qalıqları aşkar edilmişdir.

Ümumi şəkildə yanaşdıqda, neandertalların bölgəyə gəliş tarixini, daş sənayesinin sonrakı inkişafını və dolanışıq strategiyalarını araşdırmaq mümkün olur. Biz bu məsələləri müasir analitik üsullarla təhlil etməyi planlaşdırırıq. Tədqiqat növbəti illərdə də davam etdiriləcək. Bu analizlərin birgə nəticələri Cənubi Qafqazda neandertalların mənşəyi və inkişafı ilə bağlı araşdırmalara mühüm töhfə verəcəkdir.

## Ədəbiyyat siyahısı:

1. *Azərbaycan Arxeologiyası [6 cilddə] –Bakı: Şərq–Qərb, – c. 1. –2008.–448 s.*

*2. Zeynalov A, Nishiaki Y, Məmmədov Y, Səfərova Ü, Babai B. 2024-cü ildə Azərbaycan-Yaponiya birgə paleolit arxeoloji ekspedisiyasının Tağlar mağarasında apardığı çöl-tədqiqat işlərinin nəticələrinə dair / Azərbaycanda arxeoloji və antropoloji tədqiqatlar: nəticələr və perspektivlər Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinə həsr olunmuş Elmi Sessiyanin tezisləri, Baki 2025, s. 10-13.*
*3. Zeynalov, A., Y. Nishiaki and Y. Mammadov. Azykh and Taglar Caves in the Karabakh. Baku: Ministry of Culture and Tourism, Azerbaijan. 2025. 23 p.*
*4. Nishiaki, Y., A. Zeynalov and M. Mammadov. The Middle Paleolithic lithic industry of Taglar Cave, Azerbaijan, in the South Caucasus / The 12th Meeting of the Asian Paleolithic Association. Sendai, June 20–24, 2025.*
*5. Nishiaki, Y., Zeynalov A., Y. Mammadov Y and Safarova U. Resumption of the excavations of the Middle Paleolithic Taglar Cave, Karabakh / Theses of the International Scientific Conference dedicated of the 90th anniversary of professor Gudrat İsmayılzadeh on "The Cultural Heritage of Karabakh and Zangezur in Archaeological and Ethnographic Studies". Baku, 2024. p.11-12.*
*6. Гусейнов, М. М. 2010. Древний палеолит Азербайджана / М.М. Гусейнов. – Баку: Тек Нур, – 2010. – с. 202.*
*7. Джафаров, А.К., 1983. Мустьерская культура Азербайджана (по материалам Тагларской пещеры) / Баку: Элм, –1983, 97 с.*
*8. Джафаров, А.Г., 1999. Средний палеолит Азербайджана / Баку: Элм, –1999, 228 с.*
*9. Джафаров, А.К., Палеолитическая стоянка Таглар в Азербайджане // IRS Heritage, 2017. № 6, с. 17-21*



**Şəkil 1.** Tağlar mağarasının ümumi görünüşü




**Şəkil 2.** Tağlar mağarasının qazıntı planı.



**Şəlikil 3.** Tağlar mağarasından orta paleolit dövrünə aid daş artefaktlar